Ərazi və əhali

Rayonun ərazisi 1,18 min kvadrat kilometrə, əhalinin sıxlığı isə bir kvadrat kilometrə 94,0 nəfərə bərabərdir.

İlkin məlumata əsasən 2024-cü il aprel ayının 1-i vəziyyətinə rayonun əhalisi 110632 nəfər olmuş və əhalinin 49,7 faizini kişilər, 50,3 faizini qadınlar təşkil edir.

Əhalinin 20,2 min nəfəri və ya 18,3 faizi şəhər yerlərində, 90,4 min nəfəri və ya 81,7 faizi isə kənd yaşayış məntəqələrində yaşayır.

Əhalinin 23,3 faizini 0-14 yaşda, 69,5 faizini 15-64 yaşda, 7,2 faizini isə 65 və yuxarı yaşda olanlar təşkil edir. 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsinə əsasən əhalinin 88,9 faizini azərbaycanlılar, 11,1 faizini isə digər millətlər təşkil edir.

2023-2024-cü illərin yanvar-mart aylarında bəzi demoqrafik göstəricilər.

Göstəricilər	Nəfər		Əhalinin hər min nəfərinə	
	2024-cü ilin yanvar-mart aylarında*	2023-cü ilin yanvar- mart aylarında	2024-cü ilin yanvar-mart aylarında*	2023-cü ilin yanvar-mart aylarında
Əhalinin sayı	**110632**	**109890**	**x**	**x**
Ümumi artım	92	181	3,4	6,7
Təbii artım	84	176	3,1	6,5
Doğulanlar	203	331	7,4	12,2
Ölənlər	119	155	4,3	5,7
o cümlədən : 1 yaşa qədər ölənlər	2	-	9,9	-
Miqrasiya saldosu	8	5	0,3	0,2
Nikahlar	97	133	3,5	4,9
Boşanmalar	42	33	1,5	1,2

*** İlkin məlumat**

2024-cü ilin yanvar-mart aylarında rayonda 203 nəfər körpə doğulmuş və 119 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 2 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı 12,2-dən 7,4-ə qədər, ölənlərin sayı isə 5,7-dən 4,3-ə qədər azalmışdır.

2024-cü ilin yanvar-mart aylarında rayonda 97 nikah və 42 boşanma qeydə alınmışdır ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə nikahların sayı 4,9-dan 3,5-ə qədər azalmış, boşanmaların sayı isə 1,2-dən 1,5-ə qədər artmışdır.


Demoqrafik göstəricilər
2024-cü il yanvar-mart
2023-cü il yanvar-mart
ümumi artım
92
181
təbii artım
84
176
doğum
203
331
ölüm
119
155
1 yaşadək uşaq ölümü
2
0
miqrasiya saldosu
8
5
nikah
97
133
boşanma
42
33

Makroiqtisadi göstəricilər

2024-cü ilin yanvar-mart aylarında ümumi məhsul buraxılışının həcmi əvvəki ilin müvafiq dövrü ilə müqayisədə 2628,6 min manat və ya müqayisəli qiymətlərlə 3,7 faiz azalaraq, 68602,1 min manat olmuşdur.

Ümumi məhsul buraxılışının həcmi müqayisəli qiymətlərlə informasiya və rabitə sahəsi üzrə 47,3 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə 4,5 faiz, ticarət: nəqliyyat vasitələrininin təmiri sahəsi üzrə 2,9 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 0,3 faiz artmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsinin həcmi 1100,0 min manat və ya müqayisəli qiymətlərlə 1,0 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 360,0 min manat və ya müqayisəli qiymətlərlə 1,4 faiz artmışdır. 2024-cü ilin yanvar-fevral ayları ərzində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 616,9 manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 91,1 manat və ya 17,3 faiz çoxdur.

İqtisadiyyatın əsas sahələrində məhsul buraxılışının fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə

Göstəricilərin adı	2024-cü ilin yanvar-mart aylarında faktiki qiymətlərlə (min manatla)	2023-cü ilin yanvar-mart aylarında faktiki qiymətlərlə (min manatla)	2023-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə, faizlə
Rayon üzrə ümumi məhsul buraxılışının həcmi (ilkin məlumat)	**68602,1***	**71230,7**	**96,3**
o cümlədən:			
- Sənaye	*22851,1*	*25801,2*	*93,8*
- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	*18863,9*	*17550,7*	*100,3*
- Tikinti	*1303,2*	*3219,7*	*40,5*
- Nəqliyyat və anbar təsərrüfatı	*722,0*	*705,7*	*104,5*
- İnformasiya və rabitə	*317,9*	*215,0*	*147,3*
- Ticarət: nəqliyyat vasitələrinin təmiri	*24544,0*	*23738,4*	*102,9*

*** İlkin məlumat**

Bəzi makroiqtisadi göstəricilər

Göstəricilərin adı	2024-cü ilin yanvar-mart aylarında faktiki qiymətlərlə (min manatla)*	2023-cü ilin yanvar-mart aylarında faktiki qiymətlərlə (min manatla)	2023-cü ilə nisbətən, faizlə
Əsas kapitala yönəldilmiş investitsiya	397,4	280,5	141,7
Pərakəndə ticarət dövriyyəsi	76700,0	75600,0	101,0**
Əhaliyə göstərilən ödənişli xidmətlər	9480,0	9120,0	101,4**
Nəqliyyat sektorunda yük daşınması, fiziki şəxslər üzrə (min ton)	165,0	157,0	105,1
Nəqliyyat sektorunda sərnişin daşınması, fiziki şəxslər üzrə (min sərnişin)	1808,0	1697,0	106,5
Orta aylıq nominal əməkhaqqı (manat) 01.03.2024-cü il tarixinə	616,9	525,8	117,3

*** İlkin məlumat**

** **Müqayisəli qiymətlərlə**


Ümumi məhsul
buraxılışında sahələrin xüsusi çəkisi, faizlə
2024-cü il yanvar-mart
Ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsi üzrə 35,8 %
Sənaye sahəsi üzrə 33,3 %
İnformasiya və rabitə sahəsi üzrə 0,5 %
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 27,5 %
Tikinti sahəsi üzrə 1,9 %
Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə 1,0 %

Kənd təsərrüfatı

Rayonun iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. 2024-cü ilin yanvar-mart ayları ərzində istehsal edilmiş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri ilkin hesablamalara əsasən 18863,9 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 1313,2 min manat və ya müqayisəli qiymətlərlə 0,3 faiz çoxdur. Istehsal olunmuş kənd təsərrüfat məhsullarının hamısı heyvandarlıq məhsullarının payına düşür.

Kənd təsərrüfatının sahələri üzrə məhsul buraxılışı, min manatla

Göstəricilərin adı	2024-cü il yanvar-mart faktiki qiymətlərlə, min manatla	2023-cü il yanvar-mart faktiki qiymətlərlə, min manatla	Fərq faktiki qiymətlərlə, min manatla +;-	2023-cü ilə nisbətən fiziki həcm indeksi, faizlə
Kənd təsərrüfatı sahəsi üzrə	18863,9	17550,7	1313,2	100,3
o cümlədən:				
- bitkiçilik sahəsi üzrə	-	-	-	x
- heyvandarlıq sahəsi üzrə	*18863,9*	*17550,7*	*1313,2*	x

Bitkiçilik: Rayonun təsərrüfatlarında yazlıq bitkilərin kütləvi əkini davam edir. Kənd təsərrüfatı müəssisələri, əhali və fermer təsərrüfatları əlverişli hava şəraitindən maksimum istifadə edərək yazlıq bitkilərin əkinini optimal müddətdə və aqrotexniki qaydada başa çatdırmağa çalışırlar.

2024-cü il aprelin 1-i vəziyyətinə 2515,0 hektar sahədə yazlıq bitkilər əkilmiş və onun 1398,0 hektarını yem bitkiləri (yonca), 518,0 hektarını bostan bitkiləri, 360,0 hektarını kartof, 219,0 hektarını tərəvəz, 14,0 hektarını dən üçün qarğıdalı, 6,0 hektarını dən üçün günəbaxan əkini təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,0 hektar dən üçün qarğıdalı, 22,0 hektar kartof, 16,0 hektar tərəvəz, 480 hektar yem bitkiləri (yonca) cox, 15 hektar pambıq, 1,0 hektar dən üçün günəbaxan, 25,0 hektar bostan bitkiləri isə az əkilmişdir.

Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha

Bitkiçilik məhsullarının adı	2024-cü il yanvar-mart	2023-cü il yanvar-mart	2023-cü ilin müvafiq dövrünə nisbətən fərqi +,-
Dənlilər və dənli paxlalılar-cəmi	**16794,0**	**19778,0**	**-2984,0**
o cümlədən:			
- buğda	*12551,5*	*14873,0*	*-2321,5*
- arpa	*4228,5*	*4894,0*	*-665,5*
- dən üçün qarğıdalı	*14,0*	*11,0*	*3,0*
Texniki bitkilər-cəmi	***6,0***	***22,0***	***-16,0***
o cümlədən:			
- pambıq	-	*15,0*	*-15,0*
- dən üçün günəbaxan	*6,0*	*7,0*	*-1,0*
Kartof	**360,0**	**338,0**	**22,0**
Tərəvəz	**219,0**	**203,0**	**16,0**
Bostan bitkiləri	**518,0**	**543,0**	**-25,0**
Meyvə və giləmeyvə	**3071,6**	**2896,6**	**175,0**
Üzüm	-	-	-
Cəmi yem bitkiləri	**1398,0**	**918,0**	**480,0**
o cümlədən:			

- yonca	*1398,0*	*918,0*	*480,0*

Heyvandarlıq: 2024-cü ilin 1 aprel vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə iri buynuzlu mal-qaranın baş sayı 68066 baş, o cümlədən, inək və çamışların baş sayı 32582 baş, qoyun və keçilərin baş sayı 116832 baş olmuşdur. 2023-cü ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın baş sayı 164 baş, qoyun və keçilərin baş sayı isə 349 baş artmışdır.

İri buynuzlu mal qaranın tərkibində inək və camışların sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 39 baş artmışdır.

Heyvandarlıq sahəsində fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri üzrə 2024-cü ilin 1 aprel vəziyyətinə iri buynuzlu mal-qaranın sayı 588 baş, o cümlədən, inək və çamışların sayı 260 baş, qoyun və keçilərin baş sayı isə 8962 baş olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal qaranın sayı 156 baş, o cümlədən, inək və camışların sayı 104 baş, qoyun və keçilərin sayı isə 798 baş azalmışdır.

Heyvandarlıq sahəsində 22 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir.

Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), müqayisəli məlumat (baş)

Göstəricilər	01.04.2024-cü il tarixinə	01.04.2023-cü il tarixinə	2023-cü ilin müvafiq dövrünə nisbətən fərqi +,-
İri buynuzlu mal-qara	68066	67902	164
o cümlədən: *- inək və camışlar*	32582	32543	39
Qoyun və keçilər	116832	116483	349



2024-cü ilin yanvar-mart ayları ərzində ət istehsalı (diri çəkidə) 1686,7 ton, süd istehsalı 8554,9 ton, yumurta istehsalı 3850 min ədəd olmuşdur. Əvvəki ilin müvafiq dövrü ilə müqayisədə 3,0 ton ət, 2,5 ton süd, 39 min ədəd yumurta çox istehsal olunmuşdur.

Heyvandarlıq məhsullarının istehsalı, müqayisəli məlumat					
Məhsulun adı	Ölçü vahidi	2024-cü ilin yanvar-mart aylarında	2023-cü ilin yanvar-mart aylarında	2023-cü ilin müvafiq dövrünə nisbətən,	
				+;-	faizlə
Ət (diri çəkidə)	ton	1686,7	1683,7	3,0	100,18
Süd	ton	8554,9	8552,4	2,5	100,03
Yumurta	min ədəd	3850,0	3811,0	39	101,02

Sənaye

2024-cü ilin yanvar-mart ayları ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 22851,1 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 6,2 faiz az sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın 95,38 faizi sənaye məhsulları, 4,62 faizi isə sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur.

İstehsal olunan sənaye məhsulu və xidmətlərin 95,38 faizi emal və mədənçıxarma sənayesi bölməsinin, 3,05 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin, 1,57 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin payına düşür. Ümumi istehsalda qeyri-dövlət sektoru 73,8 faiz, dövlət sektoru isə 26,2 faiz təşkil etmişdir.

1 aprel 2024-cü il tarixinə sənaye müəssisələrinin anbarlarında 32479,6 min manatlıq hazır məhsul qalığı olmuşdur.

Mal və xidmətlərin 19801,1 min manat və ya 86,7 faizi hüquqi şəxslər, 3050,0 min manat və ya 13,3 faizi isə fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehsal olunmuşdur.

Sənaye istehsalçıları tərəfindən yanvar-mart ayları ərzində 6237,3 ton pambıq mahlıcı, 7198,2 ton pambıq çiyidi, 430,0 ton pambıq lint-tiftiyi, 92,2 ton pambıq ulyuku, 247,4 ton biyan turşusu, 246,0 ton biyan kipi istehsal olunmuşdur.

2024-cü ilin yanvar-mart ayları ərzində müəssisələr tərəfindən istehsal olunmuş məhsulların miqdarı və əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi aşağıdakı cədvəldə göstərilmişdir.

Sənaye müəssisələri tərəfindən natura formasında istehsal olunmuş məhsullar müqayisəli (tonla)

Məhsulun adı	2024-cü ilin yanvar-mart aylarında	2023-cü ilin yanvar-mart aylarında	2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə
Pambıq mahlıcı	6237,3	6777,9	92,0
Pambıq çiyidi	7198,2	8353,3	86,2
Pambıq tiftiyi (linti)	430,0	393,1	109,4
Pambıq ulyuku	92,2	30,0	3,1 dəfə
Biyan turşusu	247,4	205,8	120,2
Biyan kipi	246,0	50,9	4,8 dəfə

Əsaslı tikinti

2024-cü ilin yanvar-mart ayları ərzində tikinti təşkilatları və fərdi sahibkarlar tərəfindən 1303,2 min manat həcmində tikinti işləri yerinə yetirilmişdir. Görülmüş tikinti işlərinin 122,2 min manatını və ya 9,4 faizini tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilməsi işləri, 640,0 min manatını və ya 49,1 faizini əsaslı təmir, 541,0 min manatını və ya 41,5 faizini isə cari təmir işləri təşkil etmişdir.

2024-cü ilin yanvar-mart ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 397,4 min manat olaraq əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 41,7 faiz çox olmuşdur. İstifadə olunan investisiyanın 361,6 min manatı və ya 91,0 faizi dövlət vəsaiti, 35,8 min manatı və ya 9,0 faizi isə qeyri dövlət vəsaitləri hesabına olmuşdur.

Cari ilin yanvar-mart ayları ərzində əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 110,0 kv.m olan fərdi yaşayış evləri istifadəyə verilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 706,0 kv.m və ya 13,5 dəfə az olmuşdur.

Yerinə yetrilmiş tikinti işlərinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi (faktiki qiymətlərlə) aşağıdakı cədvəldə göstərilmişdir.

Yerinə yetrilmiş tikinti işlərinin dəyəri, min manatla			
	2024-cü ilin yanvar-mart aylarında	2023-cü ilin yanvar-mart aylarında	2023-cü ilin müvafiq dövrünə nisbətən, faizlə
Cəmi tikinti işləri	1303,2	3219,7	40,5
o cümlədən:			
- tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilmə	*122,2*	*2856,1*	*4,3*
- əsaslı təmir	*640,0*	*-*	*-*
- cari təmir	*541,0*	*363,6*	*148,8*



Nəqliyyat

2024-cü ilin yanvar-mart ayları ərzində nəqliyyat müəssisələri və nəqliyyat sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən məhsul buraxılışının həcmi 722,0 min manat olmuşdur ki, ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 4,5 faiz artmışdır. Məhsul buraxlışının həcmindən 47,0 min manatı hüquqi şəxslərin, 675,0 min manatı isə fiziki şəxslərin payına düşür. 2024-cü ilin yanvar-mart ayları ərzində fiziki şəxslər tərəfindən 1808,0 min sərnişin, 165,0 min ton yük daşınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 111,0 min və ya 6,5 faiz çox sərnişin, 8,0 min ton və ya 5,1 faiz çox yük daşınmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışı və fiziki şəxslər tərəfindən sərnişin və yük daşınmanın həcmi aşağıdakı cədvəldə göstərilmişdir.

Nəqliyyat sektorunun əsas göstəriciləri			
Sahələrin adı	2024-cü ilin yanvar-mart aylarında	2023-cü ilin yanvar-mart aylarında	2023-cü ilin müvafiq dövrünə nisbətən, +,-
Nəqliyyat sektorunda məhsul buraxılışı (min manat)	722,0	705,7	16,3
o cümlədən:			
- hüquqi şəxslər üzrə (min manat)	47,0	60,7	-13,7
- fiziki şəxslər üzrə (min manat)	675,0	645,0	30,0
Sərnişin daşınma fiziki şəxslər üzrə (min sərnişin)	1808,0	1697,0	111,0
Yük daşınma həcmi fiziki şəxslər üzrə (min ton)	165,0	157,0	8,0

Rabitə

2024-cü ilin yanvar-mart ayları ərzində rabitə müəssisələri tərəfindən müəssisə təşkilatlara və əhaliyə göstərilən xidmətlərin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 317,9 min manat olmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 102,9 min manat və ya müqayisəli qiymətlərlə 47,3 faiz çox olmuşdur. Rabitə xidmətlərinin həcmindən əhaliyə göstərilən rabitə xidmətlərinin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 241,8 min manat olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 58,2 min manat artmışdır.

Rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin faktiki qiymətlərlə dəyəri, min manatla

Göstəricilər	2024-cü ilin yanvar-mart aylarında	2023-cü ilin yanvar-mart aylarında	2023-cü ilin müvafiq dövrünə nisbətən, +,-
Rabitə xidmətlərindən əldə olunan gəlir (ƏDV-siz)	317,9	215,0	102,9
ondan: *- əhaliyə göstərilən rabitə xidmətlərinin dəyəri (ƏDV-siz)*	241,8	183,6	58,2



Pərakəndə ticarət dövriyyəsinin həcmi

2024-cü ilin yanvar-mart ayları ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi 76700,0 min manat olmuşdur ki, bunun da 10485,3 min manatı və ya 13,7 faizi hüquqi şəxslərin, 66214,7 min manatı və ya 86,3 faizi fərdi sahibkarların payına düşür.

Pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1100,0 min manat və ya müqayisəli qiymətlərlə 1,0 faiz artmışdır.

Pərakəndə ticarət dövriyyəsinin 37507,6 min manatı və yaxud 48,9 faizi ərzaq malları, içkilər və tütün məmulatlarının, 39192,4 min manatı və yaxud 51,1 faizi qeyri-ərzaq mallarının payına düşür. Pərakəndə ticarət dövriyyəsinin 76698,0 min manatı və ya 99,9 faiz özəl sektorun payına düşür. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal qalığı 18179,6 min manat olmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin həcmi, min manatla				
Göstəricilər	pərakəndə ticarət dövriyyəsinin həcmi	o, cümlədən		01.04.2024-cü il tarixinə mal qalığı
		ərzaq malları, içkilər və tütün məmulatları	qeyri-ərzaq malları	
Rayon üzrə cəmi	76700,0	37507,6	39192,4	18179,6
o cümlədən; - Hüquqi şəxslər üzrə	10485,3	2859,3	7626,0	2115,3
- Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə, cəmi	66214,7	34648,3	31566,4	16064,3
o cümlədən : - Bazar və yarmarkalar	24394,1	12884,7	11509,4	-
- Fərdi sahibkarlar üzrə	41820,6	21763,6	20057,0	16064,3



Əhaliyyə göstərilən ödənişli xidmətlərin həcmi

2024-cü ilin yanvar-mart ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 9480,0 min manat olmuşdur ki, bunun da 1647,6 min manatı hüquqi şəxslərin, 7832,4 min manatı isə fərdi sahibkarların payına düşür.

Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 360,0 min manat və ya müqayisəli qiymətlərlə 1,4 faiz artmışdır. Göstərilən ödənişli xidmətlərin həcmindən 1165,0 min manatı məişət xidməti olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 41,0 min manat və ya müqayisəli qiymətlərlə 1,2 faiz çoxdur. 2024-cü ilin yanvar-mart ayları ərzində iaşə dövriyyəsinin həcmi 1020,0 min manat olmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 40,0 min manat və ya müqayisəli qiymətlərlə 1,8 faiz çox olmuşdur.

Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla		
Göstəricilər	2024-cü il yanvar- mart aylarında	o, cümlədən; məişət xidməti
Ödənişli xidmətlərin həcmi	9480,0	1165,0
o cümlədən :		
- hüquqi şəxslər üzrə	*1647,6*	*-*
- fərdi sahibkarlar üzrə	*7832,4*	*1165,0*

Yeni açılmış iş yerləri

2024-cü ilin yanvar-mart aylarında rayonda inkişaf edən yeni iqtisadi münasibətlər şəraitində əhalinin iqtisadi fəallığı xeyli artmış və fəaliyyət sahələri genişlənmişdir.

Cari ilin I rübü ərzində 39 yeni iş yeri açılmışdır ki, bunun 37-si yeni yaranmış, 1-i mövcud, 1-i isə fəaliyyəti bərpa edilmiş hüquqi şəxslərin payına düşür.

Yeni açılmış iş yerləri haqqında məlumat (vahid)		
Göstəricilərin adı	2024-cü ilin birinci rübündə	İlin əvvəlindən
Hüquqi şəxslər üzrə yeni açılmış iş yerlərinin sayı	39	39
o cümlədən:		
- yeni yaradılmış hüquqi şəxslərdə	*37*	*37*
- mövcud hüquqi şəxslərdə	*1*	*1*
- fəaliyyəti bərpa edilmiş hüquqi şəxslərdə	*1*	*1*

İqtisadi fəal, məşğul, işsiz əhali

01 yanvar 2024-cü il tarixinə bütün işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhali 59389 nəfər olmuşdur ki, bununda 56892 nəfəri məşğul əhali, 2497 nəfəri işsiz əhalidir.

2024-cü ilin yanvar ayının 1-i vəziyyətinə iqtisadi fəal, məşğul və işsiz əhalinin yaşayış yerinə görə say bölgüsü, nəfər			
Göstəricilərin adı	İqtisadi fəal əhali	Məşğul əhali	İşsiz əhali
Rayon üzrə cəmi	59389	56892	2497
o cümlədən:			
- şəhər yeri üzrə	*10088*	*9478*	*610*
- kənd yeri üzrə	*49301*	*47414*	*1887*

Muzdla çalışanlar və orta aylıq nominal əməkhaqqı

2024-cü il martın 1-i vəziyyətinə rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 8695 nəfər olmuş, onlardan 5501 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 3194 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 29,1 faizi təhsil, 24,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 14,0 faizi sənaye, 8,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 7,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,6 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,5 faizi tikinti, 0,9 faizi peşə, elmi və texniki fəaliyyət, 0,6 faizi informasiya və rabitə, 0,5 faizi maliyyə və sığorta fəaliyyəti, 0,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin yanvar-fevral aylarında rayonun iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 17,3 faiz artaraq 616,9 manat olmuşdur. İqtisadiyyatın maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; sosial təminat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

2024-cü ilin yanvar-fevral aylarında işləyənlərin orta sayı və orta aylıq nominal əmək haqqı barədə məlumat

Fəaliyyət növünün adı	2024-cü ilin yanvar-fevral aylarında		2023-cü ilin yanvar-fevral aylarında	
	İşləyənlərin orta sayı (nəfərlə)	Orta aylıq nominal əməkhaqqı (manat)	İşləyənlərin orta sayı (nəfərlə)	Orta aylıq nominal əməkhaqqı (manat)
1	2	3	4	5
Cəmi	**8695**	**616,9**	**8633**	**525,8**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	779	494,0	792	463,7
Emal sənayesi	802	514,8	824	512,0
Mədənçıxarma sənayesi	4	338,6	4	300,0
Elektirik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	129	754,2	124	711,4
Su təchizatı, tullantların təmizlənməsi və emalı	286	381,1	253	411,8
Tikinti	301	588,5	396	547,7
Ticarət; nəqliyyat vasitələrin təmiri	2130	386,2	2107	361,5
Nəqliyyat və anbar təsərrüfatı	31	453,8	37	395,0
İnformasiya və rabitə	51	741,7	47	428,1
Maliyyə və sığorta	43	1359,2	46	1014,0
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	8	376,5	10	337,6
Peşə, elm və texniki fəaliyyət	82	508,2	77	504,1
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	3	330,0	3	308,3
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	528	777,5	537	748,2
Təhsil	2528	845,2	2389	611,0
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	656	702,3	662	637,1

İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	315	508,6	305	508,4
Digər sahələrdə xidmətlərin göstərilməsi	19	1137,2	20	735,2